*“Metafizika” Journal*
*Vol 8, issue 1, serial 29, 2025. pp.225-237*
*AcademyGate Publishing*
*p-ISSN 2616-6879; e-ISSN 2617-751X*

**UDC:** 327; 341
**LBC:** 66.4; 66.49; 66.49; 65.428
**MJ №** 263
10.33864/2617-751X.2025.v8.i1.225-237

# China’s Belt and Road Initiative: Analysis of Economic and Geopolitical Impacts

**Aghalar Aghalarli***
**Elchin Ahmadov****

**Abstract.** China’s Belt and Road Initiative (BRI) is a major strategic project designed to serve international trade, geopolitical influence, and economic development objectives. Its implementation has altered the composition of China’s foreign assets, affecting liquidity and revenue indicators. However, the outcomes of these investments have not been as profitable as anticipated, raising questions about their economic efficiency. The BRI’s direct impact on exports and GDP growth has been limited, although it has contributed to diversifying trade routes and reducing geopolitical distances to some extent. From a geopolitical perspective, the BRI has expanded China’s trade partnerships and sphere of influence, achieving positive outcomes, particularly in the Global South. Nonetheless, tensions with Western countries have escalated, occasionally leading to counterproductive results for the initiative. The military implications of the BRI remain in an early stage of evaluation. This article explores how successful the BRI has been in achieving China’s objectives against the backdrop of economic indicators and geopolitical relations.

**Keywords:** Belt and Road Initiative, China, Foreign Direct Investment, International Trade, Geopolitical Distance

---

* Doctoral student of Western Caspian University Department of "International Relations”; Baku, Azerbaijan (corresponding author)
E-mail: aghalaraghalarli@gmail.com
https://orcid.org/0009-0006-0174-8987
** Doctor of Political Science, Professor,
Professor in the Academy of Public Administration under the President of Republic of Azerbaijan; Baku, Azerbaijan
E-mail: elchin.ahmedov@yahoo.com
https://orcid.org/0000-0002-0596-3514

**To cite this article:** Aghalarli, A., & Ahmadov, E. [2025]. China’s Belt and Road Initiative: Analysis of Economic and Geopolitical Impacts. *“Metafizika” journal*, *8*(1), pp.225-237.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i1.225-237

**Article history:**
*Received: 27.12.2024*
*Accepted: 03.03.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 327; 341
**ББК:** 66.4; 66.49; 66.49; 65.428
**MJ №** 263
10.33864/2617-751X.2025.v8.i1.225-237

# Китайская Инициатива «Пояс и Путь»: Анализ Экономических и Геополитических Последствий

**Агалар Агаларлы***
**Эльчин Ахмедов****

**Абстракт.** Инициатива “Пояс и путь” Китая представляет собой крупный стратегический проект, направленный на достижение целей в области международной торговли, геополитического влияния и экономического развития. Ее реализация изменила состав иностранных активов Китая, повлияв на показатели ликвидности и доходности. Однако результаты этих инвестиций оказались менее прибыльными, чем ожидалось, что ставит под сомнение их экономическую эффективность. Прямое воздействие “Пояс и путь” на экспорт и рост ВВП было ограниченным, хотя инициатива внесла вклад в диверсификацию торговых маршрутов и сокращение геополитических расстояний. С геополитической точки зрения “Пояс и путь” расширила торговые партнерства Китая и его сферу влияния, добившись положительных результатов, особенно в странах Глобального Юга. Тем не менее напряженность в отношениях с западными странами усилилась, что в некоторых случаях привело к контрпродуктивным последствиям для инициативы. Военные аспекты “Пояс и путь” остаются на ранней стадии оценки. В данной статье исследуется, насколько успешно инициатива “Пояс и путь” способствует достижению целей Китая на фоне экономических показателей и геополитических отношений.

**Ключевые слова:** Инициатива “Пояс и путь”, Китай, Прямые иностранные инвестиции, Международная Торговля, Геополитическая Дистанция

---

* Докторант Западно-Каспийского университета Кафедра «Международные отношения»; Баку, Азербайджан (ответственный автор)
E-mail: aghalaraghalarli@gmail.com
https://orcid.org/0009-0006-0174-8987
** Доктор политических наук, профессор,
Профессор кафедры «Международные отношения и внешняя политика» Академии государственного управления при Президенте Азербайджанской Республики; Баку, Азербайджан
E-mail: elchin.ahmedov@yahoo.com
https://orcid.org/0000-0002-0596-3514

**Цитировать статью:** Агаларлы, А., & Ахмедов, Э. [2025]. Китайская Инициатива «Пояс и Путь»: Анализ Экономических и Геополитических Последствий. *Журнал «Metafizika»*, *8*(1), с.225-237.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i1.225-237

**История статьи:**
*Статья поступила в редакцию: 27.12.2024*
*Отправлена на доработку: 27.01.2024*
*Принята для печати: 03.03.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 327; 341
**KBT:** 66.4; 66.49; 66.49; 65.428
**MJ №** 263
10.33864/2617-751X.2025.v8.i1.225-237

# Çinin Kəmər və Yol Təşəbbüsü: İqtisadi və Geosiyasi Təsirlərin Təhlili

**Ağalar Ağalarlı***
**Elçin Əhmədov****

**Abstrakt.** Çinin “Kəmər və Yol Təşəbbüsü” (KYT) beynəlxalq ticarət, geosiyasi təsir və iqtisadi inkişaf məqsədlərinə xidmət etmək üçün formalaşdırılmış böyük bir strateji təşəbbüsdür. Onun həyata keçirilməsi Çinin xarici aktivlərinin tərkibini dəyişdirərək likvidlik və gəlir göstəricilərinə təsir edib. Lakin bu investisiyaların nəticələri gözlənilən qədər gəlirli olmayıb, bu da onun iqtisadi səmərəliliyini sual altına qoyur. KYT-nin ixracat və ÜDM artımına birbaşa təsiri məhdud olub, lakin müəyyən ölçüdə ticarət marşrutlarının diversifikasiyası və geosiyasi məsafələrin azaldılmasına kömək edib. Geosiyasi aspektdən isə KYT Çinin ticarət tərəfdaşlarını və təsir dairəsini genişləndirib, xüsusən Qlobal Cənubda müsbət nəticələr əldə edib. Bununla belə, Qərb ölkələri ilə münasibətlərdə gərginlik artıb, bu da KYT-nin bəzən əks nəticələr verməsinə səbəb olub. KYT-nin hərbi təsirləri isə hələ erkən mərhələdə qiymətləndirilir. Bu məqalədə iqtisadi göstəricilər və geosiyasi münasibətlər fonunda KYT-nin Çinin əldə etmək istədiyi məqsədlərə çatmaqda nə qədər uğurlu olub-olmadığı araşdırılmışdır.

**Açar sözlər:** Kəmər və Yol Təşəbbüsü, Çin, Birbaşa Xarici İnvestisiya, Beynəlxalq Ticarət, Geosiyasi Məsafə

* Qərbi Kaspi Universitetinin “Beynəlxalq Münasibətlər” kafedrasının Doktorantı; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: aghalaraghalarli@gmail.com
https://orcid.org/0009-0006-0174-8987
** Siyasi elmlər doktoru, professor,
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının professoru; Bakı, Azərbaycan
E-mail: elchin.ahmedov@yahoo.com
https://orcid.org/0000-0002-0596-3514

**Məqaləyə istinad:** Ağalarlı, A., & Əhmədov, E. [2025] Çinin Kəmər və Yol Təşəbbüsü: İqtisadi və Geosiyasi Təsirlərin Təhlili. *“Metafizika” jurnalı, 8*(1), səh.225-237.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i1.225-237

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 27.12.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 27.01.2025*
*Çapa qəbul edilmişdir: 03.03.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# 1.Giriş

KYT-dən əvvəl Çinin xaricdəki aktivləri əsasən xarici valyuta rezervlərindən ibarət idi ki, bunlar da əsasən aşağı riskli, yüksək likvidliyə malik, sabit gəlirli qiymətli kağızlara investisiya edilirdi. Təbiəti etibarilə KYT Çinin xaricdəki aktivlərinin tərkibində əhəmiyyətli dəyişikliyə səbəb olub. Xarici valyuta ehtiyatları Çinin ümumi xarici aktivlərinin faiz nisbəti kimi azaldıqca, xaricə borc vermələri və birbaşa xarici investisiyaları (BXİ) artıb. Bu dəyişikliyin ilk və ən birbaşa təsiri kimi aktiv tərkibinin artan risk profili, gözlənilən gəlirlər və azalmış likvidlik profili səbəbindən Çinin xaricdəki aktivlərindən gələn gəlir artmalı idi. Ancaq rəsmi rəqəmlərə görə, bu baş verməyib.

Çinin Dövlət Xarici Valyuta İdarəsinin (DXVİ) beynəlxalq investisiya mövqeyi və ödəniş balansı haqqında məlumatlarına əsasən demək olar ki, KYT-nin icrasına başladıqdan sonra Çinin xaricdəki investisiyalarının gəlirində əksinə bir qədər geriləmə olmuşdur. 2004-cü ildən (məlumatların mövcud olduğu ilk il) KYT-nin elan edildiyi 2013-cü ilə qədər Çinin xaricdəki investisiyalarından gəlir axını xaricdəki aktivlərinin təxminən 3,3%-ni təşkil edirdi. 2013-cü ildən bəri orta gəlir 3,1%-ə düşüb və son illərdə gəlirlər daha da azalıb. [7]

Son azalma (2022-ci ildə göstərilən gəlir cəmi 1,8%, 2023-cü ildə isə 2,6%-i olub) xüsusilə kəskindir, çünki faiz dərəcələri dünyada artmağa doğru gedirdi və buna görə də gəlirlərin artması gözlənilən idi. DXVİ məlumatlarının Çinin xaricdəki aktivlərinin gəlirlərini düzgün əks elətdirdiyi qənaətinə gəlsək, deməli KYT olduqca çox baha başa gəlir. Əgər Çinin 9,4 trilyon dollar dəyərindəki xarici aktivləri risksiz ABŞ qiymətli kağızlarına investisiya edilsə, illik təxminən 4% və ya 376 milyard dollar gəlir gətirərdi. Çinin aktivlərinin daha yüksək risk və aşağı likvidlik profili nəzərə alınarsa, 5%- 6% arasında gəlir gətirməsi daha real bir gözləntidir. Əgər faktiki gəlir doğrudan da gözlənilən gəlirdən 3% aşağıdırsa, onda Çinin KYT layihəsi bəlkə də ildə təxminən 280 milyard dollar xərcə səbəb olur ki, bu da ümumi daxili məhsulun 1,5%-i ekvivalentindədir.

O zaman belə bir sual ortaya çıxır: Bu fürsət xərcləri başqa yerlərdə kompensasiya olunurmu? Ən çox ehtimal olunan kateqoriya iqtisadi cəhətdən qeyri-rentabelli görünən xarici investisiyaların kənar təsirlərdən yaranan faydalar nəticəsində baş verəcək daha yüksək net ixrac performansıdır.

Lakin, KYT önə sürüləndən bəri, Çinin ixracat artımı KYT-dən əvvəlki illərlə müqayisədə kəskin şəkildə azalıb. Bunun bir sıra səbəbləri var. Birincisi, o zaman Çinin ixracatı onsuz da çox yüksək idi və dünya ticarəti yavaşlama dövrünə qədəm qoyurdu. Ancaq diqqətəlayiq olan odur ki, Çinin qlobal ixracatdakı payı əvvəlki illərlə müqayisədə daha təvazökar olsa da, artmağa davam edib. Bununla belə, 2022-ci ildə Çinin payında cüzi bir azalma

müşahidə olunub. Çox güman ki, 2024-cü il məlumatları bunun sadəcə bir yayınma olmadığını və Çinin qlobal ticarətdəki payının öz pikinə yaxınlaşdığını təsdiqləyəcəkdir.

ÜDM-nin ölçülməsinə gəldikdə, əlbəttə ki, xalis ixracat milli gəlirə töhfə verir. Çinin xalis ixracatı onun iqtisadiyyatının ölçüsü ilə müqayisədə son dərəcə dəyişkən olub və rəsmi məlumatlara görə, KYT-dən sonra nəzərə çarpan bir artım yoxdur. Çin cari hesab profisitlərinin qızıl dövrü 2005-2009-cu illər idi. Çinin telekommunikasiya avadanlıqları, elektrikli nəqliyyat vasitələri və yeni enerji kimi sektorlardakı qlobal üstünlüyünün gələcəkdə onun artan profisitlərinin yenidən canlanmasına səbəb olub-olmayacağını zaman göstərəcək.

Bununla belə, bəlkə də daha uyğun olan hesablama metodu Çinin tədiyyə balansının (1993-cü ildən bəri həmişə profisitdə olub) qlobal ÜDM-yə nisbətidir. Çinin xarici ticarət mövqeyi indi hətta 2008-ci ildən bir qədər böyükdür. Bundan əlavə, 2017-2019-cu illər dövrü istisna olmaqla, həmişə yüksək səviyyədə qalmışdır.

Beləliklə, iddia etmək olar ki, KYT-nin bəzi xərcləri Çinin net ixracatının artması ilə kompensasiya olunur. Bu, mülkiyyət və ya güzəştlər vasitəsilə idxal üçün əlverişli şərtlərin təmin edilməsi, bazara çıxış yolu ilə ixracın asanlaşdırılması və ya KYT-nin infrastruktur layihələrindən istifadə etməklə nəqliyyat xərclərinin azaldılması ilə həyata keçirilə bilər.

Bununla belə, mütləq artım baxımından, KYT-nin tətbiqindən sonrakı dövrdə Çində ÜDM artımında 7-8% diapazonundan 4-5% diapazonuna əhəmiyyətli bir yavaşlama müşahidə olunub. KYT bunun səbəbkarı olmasa da, fakt olaraq qalır ki, KYT Çinin kapital səmərəliliyinin azalması və demoqrafiya da daxil olmaqla, üzləşdiyi struktur maneələrini kompensasiya etməkdə yetərsiz qalıb. Üstəlik, son üç il Çinin qlobal ÜDM-dəki payı zirvəyə çatdığına dair işarələr göstərir.

Beləliklə yalnız qtisadi nöqteyi-nəzərdən yanaşası olsaq, KYT-nin Çin üçün artım mühərriki olduğu tezisi zəif qalır. Ən yaxşı halda demək olar ki, o, xalis ixrac performansı optimal olmayan xarici investisiyalarının xərclərinin bir qismini kompensasiya edib. Lakin bəlkə də iqtisadi artım KYT-nin yeganə və ya hətta əsas məqsədi deyildi.

KYT-nin Çin iqtisadiyyatının dayanıqlığını artırmasının ən birbaşa yolları arasında coğrafi dar boğazları keçməyə imkan verən yeni ticarət marşrutlarının açılması və yeni infrastruktur vasitəsilə ticarətin şaxələndirilməsinə şərait yaradılması var. Buna ticarətdə “geosiyasi məsafənin” qısaldılmasını da əlavə etmək olar. Yəni öz maraqları üçün geosiyasi baxımdan daha çox uzlaşan ölkələrlə daha çox ticarət etmək. Əksinə, maraqlar uzlaşmadığı halda, münasibətlərin asimmetriyası səbəbindən geosiyasi məqsədlər üçün ticarəti

pozmaq qabiliyyəti və ya istəyi məhdud olan ölkələrlə daha çox ticarət edərək dayanıqlıq əlavə edilə bilər.

**2.Geosiyasi məsafənin azaldılması**

Çin üçün geosiyasət və ticarətin kəsişməsi həmişə qaçılmaz olub. Birincisi, böyük iqtisadiyyat üçün Çin qeyri-adi dərəcədə ticarət-intensivdir. Onun ən böyük ticarət tərəfdaşlarından bəziləri, o cümlədən ABŞ, Avropa İttifaqı (Aİ), Birləşmiş Krallıq (BK), Avstraliya, Yaponiya və Cənubi Koreya həm də geosiyasi cəhətdən onunla ən az uzlaşan ölkələrdir. Bir ölkənin ticarətində geosiyasi məsafəni qısaltmağın iki yolu var: ticari münasibətləri geosiyasi cəhətdən uzaq ölkələrdən dost ölkələrə doğru dəyişmək və ya maraqların uzlaşdırılması yolu ilə geosiyasi məsafəni dəyişmək.

KYT-nin iki potensial rolu var: geosiyasi cəhətdən uzaq ölkələrdən daha yaxın ölkələrə doğru ticarəti yenidən istiqamətləndirmək və ya KYT-ni ictimai mənafe və inkişaf aləti kimi göstərərək, KYT-ni Çin tərəfindən dünyaya verilən hədiyyə kimi təqdim edərək Çin və onun ticarət tərəfdaşları arasında geosiyasi məsafəni qapatmaq.

Son 10 il ərzində Qərb ölkələri ilə Çin arasında geosiyasi məsafənin artdığını demək yanlış olmaz. Bu, tariflərin artması, ixrac nəzarəti, Aİ-nin Hərtərəfli İnvestisiya Razılaşmasını ratifikasiya edə bilməməsi, Çinə qarşı tətbiq edilən sanksiyalar və Pekinin kontr-sanksiyaları ilə əks olunur. Bu, özlüyündə KYT-yə aid edilməsə də, əsasən beynəlxalq arenada Çinin daha iddialı rol alma cəhdlərinin nəticəsidir. Elə KYT özü də Çinin bu cəhdlərinin bir parçasıdır. KYT-nin uğursuzluqlarından biri də Çinin bəzi ticarət tərəfdaşları, o cümlədən, onların cəmiyyətlərinin bəzi seqmentləri məsələn, ekoloji fəallar və insan hüquqları qrupları ilə Çin arasında geosiyasi məsafəni genişləndirməsi olub.

Qərbdən kənarda KYT-nin Çin və Qlobal Cənubun bəzi ölkələri arasında geosiyasi məsafəni qapatmağa nail olduğuna dair dəlillər var. Amma eyni zamanda hələ qət edilməli uzun bir yol da var. Çinin gömrük məlumatlarına görə, 2023-cü ildə Aİ, ABŞ, Yaponiya və Cənubi Koreya bazarları Çinin ixracatının təxminən 40%-ni təşkil edib. Çinin BRİCS qrupundakı tərəfdaşları - Braziliya, Rusiya, Hindistan və Cənubi Afrika - cəmi 9%-i təşkil edib. Cənub-Şərqi Asiyanın payına isə 15% düşüb [Ma, 2024, p. 36-38]. İdxalata gəldikdə isə, BRİCS ölkələri 12%-lə daha yaxşı təmsil olunur və bu mənada Çin Aİ və ABŞ-dan daha az asılıdır. Lakin Tayvan (əsasən yarımkeçiricilər səbəbindən) Çinin ümumi idxalının təxminən 8%-ni təşkil edir və Aİ-nin 11%-lik payından çox da geri qalmır. Aİ, ABŞ, Yaponiya, Cənubi Koreya və Tayvan birlikdə Çinin idxalının 37%-ni təşkil edir. [Ma, 2024, p.71-74]

Çin hələ də ticarət baxımından geosiyasi cəhətdən uzaq olduğu ölkələrdən asılıdır. Onun geosiyasi müttəfiqlərdən idxalının artmasının böyük hissəsi Moskvanın Ukraynaya müdaxiləsinə görə aldığı Qərb sanksiyalarına Pekinin

məhəl qoymayaraq Rusiyadan xam neft idxal etməsidir.

**3.Asimmetrik ticarət münasibətləri**

Alıcılıq qabiliyyətinə görə dünyanın ən böyük iqtisadiyyatı olduğundan, Çinlə ticarət digər ölkələr üçün Çinin özündən daha çox vacibdir. Çin üçün isə ticarət əlavə rıçaqlar təmin edir. Bir istisna isə ABŞ-dır. 2013-cü ildə malların ikitərəfli ticarəti 562 milyard dollar, 2023-cü ildə isə 575 milyard dollar olub. Ticarət nominal ifadədə belə demək olar ki, artmayıb və ABŞ-Çin ticarət müharibəsinin meydana gəldiyi 2016-cı ildə belə 659 milyard dolları keçməyib [2]. 2013-cü ildən bəri Çinin ümumi əmtəə ticarəti 2 trilyon dollardan çox artdığı üçün aydındır ki, ticarətin daha böyük hissəsi asimmetrik ikitərəfli münasibətlərdə baş verir və bu da Çinə dünyanın qalan hissəsi ilə geosiyasi qarşılıqlı əlaqələrində daha çox təsir imkanı verir.

2022-ci ildə Çinin ABŞ-dan idxalı dəyər baxımından ümumi idxalının cəmi 6,6%-ni təşkil edib. Dünyanın növbəti beş ən böyük iqtisadiyyatından (Yaponiya, Almaniya, Hindistan, Fransa və Böyük Britaniya) idxal 13,6%-ni təşkil edib və bu o deməkdir ki, Çindən başqa ən böyük altı iqtisadiyyat Çinin idxalının 20,2%-ni təşkil edib. Beləliklə, Çinin idxalının təxminən 80%-i Çinin 18 trilyon dollarlıq ÜDM-i ilə müqayisədə bütövlükdə ÜDM-i 3 trilyon dollardan az olan ölkələrdən olub və bu, münasibətləri qəti şəkildə asimmetrik etmək məcburiyyətindədir. Müqayisə üçün, bu altı iqtisadiyyat 2013-cü ildə Çinin idxalının 25%-ni təşkil edirdi.

İxracata gəldikdə isə, 2022-ci ildə Çinin ixracatının 31%-i bu altı iqtisadiyyata gedib, bu göstərici 2013-cü ildəki 32%-dən bir qədər aşağıdır. Son 10 il ərzində Çinin ticarət nümunələri daha kiçik iqtisadiyyatlara doğru meyil edib, lakin o, hələ də böyük Qərb yönümlü iqtisadiyyatlara çıxış baxımından iqtisadi cəhətdən asılıdır.

Çinin oriyentasiyasını dəyişmiş ticari əlaqələri onun ticarət tərəfdaşları üzərində təsir gücünü artırıb. 2022-ci ildə 22 ölkənin ümumi ixracatlarının 20%-dən çoxu Çin və Honq Konqa göndərilib. Lakin qeyd etmək vacibdir ki, Çin 120-dən çox ölkə üçün ən böyük ticarət tərəfdaşı olsa da, demək olar ki, hamısında liberal demokratiyalar birlikdə Çini ticarət tərəfdaşı kimi üstələyir. Bu, Çinin iqtisadi siyasətinə qarşı mübarizədə birgə hərəkətin vacibliyini ortaya qoyur.

**4.Təchizatın şaxələndirilməsi**

Çinin əsas idxalatının böyük bir hissəsi az sayda ölkə tərəfindən təmin olunur. Çox vaxt bunun səbəbi yalnız bir neçə ölkənin Çinə uyğun miqdarda məhsul təmin edə bilməsidir. Dəmir filizi buna yaxşı bir nümunədir. 2022-ci ildə Çin 128 milyard dollar dəyərində dəmir filizi idxal edib. Bunun təxminən 65%-i Avstraliyadan, 20%-i Braziliyadan, 4%-i isə Cənubi Afrikadan gəlib. 2013-cü ildə bu üç ölkə Çinin ümumi dəmir filizi idxalının 77%-ni təşkil edirdi, indi isə

bu göstərici 89%-ə çatıb. Avstraliyanın payı 10% artıb.

Mineral yanacaqlara gəldikdə isə, ən böyük üç təchizatçı (Səudiyyə Ərəbistanı, Anqola və Rusiya) ümumi təchizatın üçdə birini təşkil edib, bu göstərici 2022-ci ildə 36% olub. Çinin yarımkeçirici istehsal avadanlıqlarının mənbələri əsasən geosiyasi baxımdan uzaq olan iqtisadiyyatlar arasında cəmlənib. Bu sektorda ciddi imkanlara malik ölkələr yalnız bu ölkələrdir və şaxələndirmə mümkün deyil. Taxıl idxalı da geopolitik baxımdan uzaq tərəfdaşlar arasında yüksək dərəcədə cəmləşib. 2022-ci ildə ABŞ və Avstraliya Çinin taxıl idxalının yarıdan çoxunu təşkil edib. Braziliya və ABŞ birlikdə Çinin soya idxalının 90%-dən çoxunu təşkil edib və bu, əsas qida tərkib hissəsidir. Beləliklə, görünür ki, KYT təchizat mənbələrinin şaxələndirilməsi vasitəsilə davamlılığı artırmaqda çox kömək etməyib.

**5.Coğrafi tıxac nöqtələrindən qaçınmaq**

Çinin ticarəti coğrafi tıxac nöqtələrindən uzaqlaşdırmaqda uğur və ya uğursuzluğunu təhlil etmək üçün kifayət qədər məlumat yoxdur. Avrasiya qitəsində quru yolları işləyir və Rusiyaya, Orta Asiyaya və Myanmara olan boru kəmərləri Çinin dəniz ticarətindən asılılığını azaltmaq və beləliklə, Pekinin geosiyasi əhatəyə alınma qorxusunu aradan qaldırmaq potensialına malikdir.

Cənub-Şərqi Asiya Çinin "yaxın xarici" kimi KYT çərçivəsində baş tutan maliyyələşdirmə və investisiyalar üçün əsas məkan olub. Malakka boğazı Çinin ticarəti ilə bağlı ən yaxın geosiyasi tıxac nöqtəsi olduğuna görə, Çinin Cənub-Şərqi Asiyaya marağının həm də bu boğazda baş verə biləcək problemlərə qarşı öz həssaslığını azaltmaqla bağlı olduğunu düşünmək olar. ASEAN-ın (Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası) məlumatına görə, Cənub-Şərqi Asiya yarımadası ilə Çin arasındakı ticarətin yalnız 7%-i 2022-ci ildə quru nəqliyyatı vasitəsilə həyata keçirilib [3].

Çin və dənizə çıxışı olmayan mərkəzi Asiya ölkələri arasındakı ticarət Çinin ümumi ticarətinin kiçik bir hissəsini təşkil edir. Monqolustan, Qazaxıstan, Tacikistan, Özbəkistan və Qırğızıstan birlikdə Çinin ümumi ticarətinin 1%-dən azını təşkil edir. Pakistanla olan ticarət isə Çinin ümumi ticarətinin yalnız üçdə-bir faizi qədərdir [4].

Əlbəttə, KYT-nin quru nəqliyyat dəhlizlərinə vurğusu həm Çinin "yaxın xarici" ilə əlaqənin qurulmasına, həm də Avropaya keçidə yönəlib. Konsepsiya olaraq KYT-dən daha qədim olan Çin-Avropa ekspress dəmir yolu şəbəkəsi ilk 10 ildə təxminən 7.3 milyon 20 fut ekvivalent vahid (TEU) (dəyər olaraq təxminən 340 milyard dollar) mal daşımışdır [8]. Təkcə 2022-ci ildə Çinin limanları 269 milyon TEU iş aşırıb [5]. Çin-Avropa dəmir yolu şəbəkəsinin yaxın gələcəkdə Çinin ümumi ticarətinin yalnız bir neçə faizinin öhdəsindən gələ biləcəyi ehtimal olunur.

Alternativ ticarət marşrutlarının təmin edilməsi baxımından, potensial tıxac nöqtələrini aşmaqla bağlı KYT-nin ən yaxşı nailiyyəti, yalnız dəniz yollarının fəaliyyətində əngəllər ortaya çıxan zaman kiçik həcmdə daşımaların öhdəsindən gələ bilən alternativ marşrutlar təmin etmək olmuşdur. Nəzərə almaq lazımdır ki, qlobal ticarətin 90%-i hələ də dəniz yolu ilə həyata keçirilir.

KYT-nin Çinin iqtisadiyyatına daha çox davamlılıq əlavə etməkdə müəyyən bir töhfə verdiyini söyləmək olar. O, Çinin ticarət əlaqələrini daha asimmetrik hala gətirməkdə və Çinlə geosiyasi baxımdan daha uzlaşan ölkələrlə ticarət etməyə imkan yaratmaqda rol oynayıb. Bununla belə, əsas materialların təchizatının şaxələndirilməsinə əhəmiyyətli təsiri baş verməyib.

Çin öz təsir dairəsini genişləndirmək üçün KYT-nin birbaşa və dolayısı ilə bir çox yollarından istifadə edib. Çin tərəfindən KYT-nin Qlobal Cənubun inkişaf məqsədlərinə çatmasına kömək edən ictimai bir mənafe layihəsi kimi təbliğ olunması, ölkənin diplomatik gücünü artırmağa kömək edib. 2024-cü il üçün Lowy İnstitutunun Diplomatiya İndeksinə görə, hazırda Çinin Şərqi Asiyada 44 diplomatik nümayəndəliyi var ki, bu da ABŞ-ın 27 nümayəndəliyini geridə qoyur [Neelam, Sato, 2024, p.6].

Bundan əlavə, Regional Hərtərəfli İqtisadi Tərəfdaşlıq (RHİT) üzrə danışıqların KYT-dən əvvəl başlamasına baxmayaraq, Çinin KYT ilə əlaqədar investisiyalara dair vədləri 2020-ci ildə ticarət razılaşmasının yekunlaşmasına təkan verdi. Əslində orijinalda RHİT ASEAN tərəfindən idarə olunsa da, Hindistanın bu qrupdan kənarda qalması onun müəyyən dərəcədə Çin tərəfindən idarə olunmasına yol açıb. Xüsusilə, Çinin ÜDM-nin ASEAN-ın 10 üzv ölkəsinin birgə ÜDM-indən təxminən beş dəfə böyük olduğunu nəzərə alanda, bunu anlamaq mümkündür. Ötən il BRICS-in genişləndirilməsi bu uğurun daha bir sübutu kimi qəbul edilə bilər. Çinin 130-dan çox inkişaf etməkdə olan ölkənin üzv olduğu İnkişaf Etməkdə Olan Ölkələrin Qrupu (G77) ilə daha dərin əlaqələri də bu uğura dəlalət edir.

KYT-nin ticarətin təşviqçisi kimi rol oynadığı qədər, Çinin Qlobal Cənuba doğru yönəlmiş ticarət nümunələridə onun bir çox ölkə üzərindəki təsir rıçaqlarını artırıb. Bu ölkələrin Çindən asılı ticarəti onların Çin təsirinə müqavimət göstərmək qabiliyyətini zəiflədib. Xarici ölkələrdəki Çin təsirinin ölçüləri (məsələn, Lowy İnstitutunun Asiya Güc İndeksi) son on ildə Çin təsirinin əhəmiyyətli dərəcədə artdığını göstərir. Kamboca, Laos və Myanma daim Çin təsirinin artdığı Asiya ölkələri kimi önə çıxır. Hər üçü iqtisadi ölçüləri ilə müqayisədə KYT investisiyalarından böyük həcmdə faydalanıb.

“Doublethink Lab” tərəfindən hazırlanan Çin İndeksi, Çinin dünyada artan təsirini ölçmək məqsədi daşıyır və maraqlı nəticələrə gəlib: bir ölkənin Çinlə əlaqəli "ekspozisiyası"nın faktiki təsiri, Çinin açıq iqtisadi məcburetmə imkanlarından daha yüksəkdir [Shen, Chang, 2022, p.1]. Başqa sözlə, Çin

dərinləşən iqtisadi əlaqələr vasitəsilə siyasətə daha çox təsir edə bilər, nəinki zorakılıqla. Bəlli bir dərəcəyə qədər itaəti yaradan şey zorakılığın özü yox, qarşı tərəfin bir şeyləri dağıtma potensialıdır. Bundan əlavə, Çindən olan idxalatın payı təsirin əsas amili və uzlaşma dərəcəsinin göstəricisi idi. Digər tərəfdən, yüksək gəlirli və az korrupsiya səviyyəsinə malik ölkələr Çindən daha yüksək səviyyədə təzyiqə məruz qalsalar da, bu heç də itaətə gətirib çıxarmır.

Bu nəticələr KYT-nin Çinin təsir dairəsini genişləndirmək üçün bir vasitə olduğunu dəstəkləyir. Nə qədər ki KYT iqtisadi asılılıqlar yaratmağa kömək edir, Çin uzlaşma yaratmaq üçün daha aqressiv iqtisadi siyasətə müraciət etməyə ehtiyac duymur.

Ötən ilin əvvəllərində "Newsweek" jurnalına verdiyi müsahibədə, Çinin Vaşinqtondakı səfirliyində nazir-məsləhətçi kimi çalışan Liu Penqyu deyib: "*Çin xalqı dünyanın bir çox yerlərində yaşayır, işləyir və səyahət edir. Çin malları ilə yüklənmiş yük gəmiləri demək olar ki, bütün əsas beynəlxalq dəniz yollarında üzür. Bu, Çin ordusunun gücləndirilməsini, ölkəmizin xaricdə legitim maraqlarını qorumaq və regional və beynəlxalq sülhü təşviq etmək üçün atılan addımları tamamilə əsaslandırır*." [6]

Çinin rəsmi olaraq tanınan yeganə xarici hərbi bazası Cibutidədir və o, 2017-ci ildə fəaliyyətə başlamışdır. Maraqlıdır ki, Husi qiyamçılarının Çinin sahib olduğu neft tankerinə hücum etməsinə baxmayaraq, indiyə qədər Çinin bölgədə azad gəmiçiliyi təmin etmək üçün təzyiq göstərməyə hazır olduğunu və ya bunu edə bildiyini göstərən heç bir sübut yoxdur.

Cibutidən əlavə, Çinin Kambocadakı Reamda hərbi imkanlara malik olduğuna dair fikirlər geniş yayılmışdır. ABŞ Milli Kəşfiyyat İdarəsinin məlumatlarına görə, Çin Myanma, Kuba, Ekvatorial Qvineya, Pakistan, Seyşel adaları, Şri Lanka, Tacikistan, Tanzaniya və Birləşmiş Ərəb Əmirliklərində hərbi mövcudluğu təmin etməyi nəzərdən keçirir [1, p.10]. Bunların hamısı KYT-yə qoşulan ölkələrdir, lakin korrelasiya səbəbiyyət demək deyil. KYT ilə əlaqəli investisiyalar hərbi mövcudluq danışıqları zamanı daha açıq bir mövqeyə səbəb ola bilər.

Aydındır ki, KYT ilə əlaqəli fəaliyyətlərin beynəlxalq hərbi güc proyeksiyasına çevrilib-çevrilmədiyini qiymətləndirmək hələ erkən mərhələlərdədir. KYT Çinin yumşaq gücünü artırmış və Çinin çox tərəfli təşkilatlarda namizədlərini irəli sürdüyü zaman Qlobal Cənubun daha müsbət mövqeyə sahib olmasına şərait yaratmışdır.

## 6.Nəticə

Çinin "Kəmər və Yol Təşəbbüsü" (KYT) son on ildə vakuumda fəaliyyət göstərməmişdir. Qlobal hadisələr, xüsusilə, pandemiya və Rusiyanın Ukraynaya hücumu KYT-nin Çinin dünya miqyasında mövqeyini formalaşdırmadakı təsirini kölgədə qoymuşdur. KYT-nin təsirini digər

hadisələrdən ayırmaq mümkün olmadığından, onun uğurunu və ya uğursuzluğunu qiymətləndirmək də bir o qədər çətindir.

KYT-nin uğurunu qiymətləndirərkən, buna sərf olunan resurslar və itirilmiş imkanların dəyəri nəzərə alınmalıdır. 2013-2022-ci illər arasında Çinin xaricdəki aktivləri 6 trilyon ABŞ dollarından 9.2 trilyon ABŞ dollarına yüksəlmişdir. KYT-yə birbaşa və ya dolayısı ilə töhfə verən aktivlər isə 2.1 trilyon ABŞ dollarından 6.1 trilyon ABŞ dollarına çatmışdır. Rəsmi gəlir hesabatında əks olunan, risklə düzəldilmiş əsasda itirilmiş gəlir Çinin ÜDM-nin təxminən 1.5%-i qədərdir. Çin, KYT-nin açdığı kanallardan keçmək üçün lazım olan rəqabətcil məhsulları təmin etmək məqsədilə sənaye subsidiyalarına getdikcə daha çox maliyyə sərf edir. Bu subsidiyalar ehtiyatlı hesablamalara görə, ÜDM-nin 1.7%-i həcmində olsa da, əslində daha yüksək ola bilər. [7]

KYT-nin uğurunu qiymətləndirərkən yalnız maliyyə xərcləri nəzərə alınmamalıdır. Qərbin KYT-ni Çinin nüfuz dairəsini genişləndirmək üçün geosiyasi alət kimi qəbul etməsi müəyyən bir siyasət reaksiyasına səbəb olmuşdur. KYT, qəbul edən ölkələrdə həmişə müsbət qarşılanmamışdır və Çin tərəfinin iddialı davranışları ilə birləşdikdə bəzi hallarda Çindən geosiyasi uzaqlaşmalara gətirib çıxarmışdır. Filippin bu vəziyyətin yaxşı bir nümunəsidir.

Son on ildə Qərbin elit dairələrinin Çinlə bağlı mövqeyində baş verən dəyişikliklər nəzərə alındıqda – Çinin yüksəlişini qəbul etməkdən ona müqavimət göstərmək və ya ən azı şübhə ilə yanaşmaq mövqeyinə keçmələri – KYT-nin əks-məhsuldar olduğunu iddia etmək mümkündür. Çin indi daha skeptik, məlumatlı və birləşmiş demokratik blokla qarşı-qarşıyadır ki, bu da Çinin “Çin Xəyalı”nı reallaşdırmaq xərcini artıracaq.

Bunun əksinə olaraq, KYT-nin Çinə təhlükəsizlik məqsədlərinə çatmaqda verdiyi dəstək ölçülməlidir. Çin ticarət marşrutlarını yenidən istiqamətləndirmişdir, lakin ixrac bazarları baxımından demokratik ölkələrdən iqtisadi asılılığı hələ də əhəmiyyətli dərəcədə qalmaqdadır. Əsas idxal məhsulları təchizatçılarının coğrafi diversifikasiyası çətin olaraq qalır. Alternativ ticarət marşrutlarının açılmasında müəyyən irəliləyiş əldə edilmişdir, lakin bu marşrutların tutumu məhduddur.

KYT-nin mövcudluğu dövründə baş verən ən diqqətəlayiq dəyişiklik Çinin Qlobal Cənubda qazandığı nüfuz və bunun nəticəsində Pekinlə çoxtərəfli təşkilatlar çərçivəsində yaranan uyğunlaşmadır. Dünya ictimaiyyətinin KYT-yə cavab reaksiyası, bəlkə də, onun yekun uğurunun əsas ölçü göstəricisi olacaq.

## ƏDƏBİYYAT


1. ABŞ Milli Kəşfiyyat Direktorunun Ofisi. (2024). *Annual Threat Assessment of the US Intelligence Community.* Washington, 40 p. (in English)
2. ABŞ Ticarət Departamentinin Siyahıyaalma Bürosu. (n.d.). *Verilənlər bazası.* Retrieved from https://www.census.gov.
3. ASEAN-ın Statistika Bürosu. (n.d.). *Verilənlər bazası.* Retrieved from https://data.aseanstats.org/trade-by-mot.
4. BMT-nin Əmtəə Ticarəti Statistikası Verilənlər Bazası. (n.d.). *Verilənlər bazası.* Retrieved from https://comtradeplus.un.org.
5. BMT Ticarət və İnkişaf Verilənlər Qovşağı. (2023). *Konteyner limanlarının illik dövriyyəsi.* Retrieved from https://unctadstat.unctad.org/datacentre/dataviewer/US.ContPortThroughput (in English)
6. Brar, A. (2024). *Map shows countries where China seeks overseas military base.* Retrieved from https://www.newsweek.com/china-overseas-military-bases-us-intelligence-1878183 (in English)
7. Çin Dövlət Xarici Valyuta İdarəsi. (n.d.). *Verilənlər bazası.* Retrieved from https://www.safe.gov.cn/en/
8. Global Times. (2023). *China-Europe Railway Express injects new impetus for world economy, as 77,000 trains operated in a decade.* Retrieved from https://www.globaltimes.cn/page/202309/1298260.shtml (in English)
9. Ma, Y. (2024). *Share of main export partners of China 2023.* China, 165p. (in English)
10. Neelam, R., & Sato, J. (2024). *Lowy Institute Global Diplomacy Index.* Sydney, Lowy Institute, 24 p. (in English)
11. Shen, P., Chang, L., & Sando, B. (2022). *2022 China Index Report.* Taipei, Doublethink Lab, 24 p. (in English)


## REFERENCES


1. Office of the Director of National Intelligence of the USA. (2024). *Annual Threat Assessment of the US Intelligence Community*. Washington, 40 p. (in English)
2. U.S. Department of Commerce, Census Bureau. (n.d.). *Database.* Retrieved from https://www.census.gov (in English)
3. ASEAN Statistics Bureau. (n.d.). *Database.* Retrieved from https://data.aseanstats.org/trade-by-mot (in English)
4. United Nations Commodity Trade Statistics Database. (n.d.). *Database.* Retrieved from https://comtradeplus.un.org (in English)

**5.** UN Trade and Development Data Hub. (2023). *Annual throughput of container ports*. Retrieved from https://unctadstat.unctad.org/datacentre/dataviewer/US.ContPortThroughput (in English)
**6.** Brar, A. (2024). *Map shows countries where China seeks overseas military base*. Retrieved from https://www.newsweek.com/china-overseas-military-bases-us-intelligence-1878183 (in English)
**7.** State Administration of Foreign Exchange of China. (n.d.). *Database*. Retrieved from https://www.safe.gov.cn/en/ (in English)
**8.** Global Times. (2023). *China-Europe Railway Express injects new impetus for world economy, as 77,000 trains operated in a decade*. Retrieved from https://www.globaltimes.cn/page/202309/1298260.shtml (in English)
**9.** Ma, Y. (2024). *Share of main export partners of China 2023*. China, 165p. (in English)
**10.** Neelam, R., & Sato, J. (2024). *Lowy Institute Global Diplomacy Index*. Sydney, Lowy Institute, 24 p. (in English)
**11.** Shen, P., Chang, L., & Sando, B. (2022). *2022 China Index Report*. Taipei, Doublethink Lab, 24 p. (in English)